**“Təhsil mühitinin saflaşması ən böyük problemlərdən biridir”**

**Hamlet İsaxanlı:**
**“Saxta danışan, çirkin düşünən insanlara rast gələndə adam məyus olur. Biz də inqilabçı olmadığımız üçün belə vəziyyətdə ya şeir, ya da esse yazmaqla təsəlli tapmaq olur”**

O, riyaziyyatçı alim olmaqla yanaşı, humanitar və sosial elmlərin bir çox sahələrində yazdığı elmi tədqiqat işlərinin, poetik və bədii publisistik əsərlərin müəllifi kimi tanınır. Xəzər Universitetinin təsisçisi və rektoru Hamlet İsaxanlının keçid iqtisadiyyatı yaşayan ölkələrin təhsil sistemində islahatlara dair baxışları, nəzəri və praktik işləri təhsil xadimlərinin, hökumət nümayəndələrinin, siyasətçilərin və ictimaiyyətin fikir və işinə təsir göstərib.

Qəzetimizə müsahibəsində H.İsaxanlı təkcə həm bir alim, həm də bir vətəndaş kimi təhsil sisteminin uğur və problemləri ilə yanaşı, ümumən cəmiyyətdə onu düşündürən və narahat edən məsələlərə münasibətini bildirib.

**TƏMİZ MÜHİT**

- Rəhbərlik etdiyiniz universitet qeyri-dövlət ali təhsil müəssisələri arasında hansı mövqeyə malikdir?

- Mənim reklamdan heç vaxt xoşum gəlmir. Əslində hər hansı bir insan və ya təşkilat haqqında rəyləri qıraqdan soruşmaq lazımdır. Amma mahiyyəti izah edə bilərəm: Xəzər Universitetinin yaranmasının bir sıra səbəbləri var ki, o, öz missiyasını yerinə yetirməyə çalışır və digərlərindən bununla fərqlənir. Biz dünya ilə səsləşən, müasir bir ali məktəb qurmağa çalışdıq. İlk növbədə çalışdıq ki, dünyanın aparıcı universitetlərində tələbələr hansı fənni oxuyursa, müəllimlər hansı fənndən dərs verirlərsə onlara bənzəsin. Harvardda, Oksvordda, məsələn, kimya dərsində uşaqlar nəyi öyrənirlərsə, biz də onu öyrədək. Amma əgər uşaq qabiliyyətlidirsə, sonra öz istedadı hesabına o ali məktəbdəki uşaqla yarışa da, nəhayət təhsilinin ardını orda davam da etdirə bilər. Bunun üçün universitetin tədris dilini ingilis dili etməyə çalışdıq. Bütövlükdə mütəxəssis yetişdirmək üçün tədris planlarımızı da həmin universitetlərin təcrübəsi əsasında qurduq. Heç burdakı tədris planlarına dönüb baxmadıq. Daha bir ideya mümkün qədər uşaqlara seçmə imkanları verməyə çalışmağımızdan ibarət oldu. Hər tələbənin faktiki olaraq öz trayektoriyası olmalıdır – dünyada belə qəbul olunub. Xəzər Universiteti bununla da fərqləndi. Ən mühüm amillərdən biri burda tapşırığın, rüşvət anlayışının olmamasıdır. Əgər təhsil ocağında belə şeylər oldusa, orda heç bir keyfiyyətdən danışmaq olmaz. Rektor, müəllim daxil olmaqla bu təhsil ocağında saxtakarlıq etmək, qiymət dəyişdirmək, bir tələbəni tapşırmaq və s. mümkün deyil. Artıq mühit elə qurulub ki, kənardan dəvət olunan bir müəllim gəlib nəyə isə cəhd eləsə, mühit onu qəbul eləmir.

- Universitetin başqa dövlətlərin ali məktəbləri ilə əməkdaşlığı hansı səviyyədədir?

- Biz beynəlxalq əlaqələr şəbəkəsi qurmuşuq. Bir ucu Amerikaya, bir ucu Yaponiyaya gedib çıxan, Avrasiya məkanını, Afrikanın şimalını əhatə edən əməkdaşlıq proqramlarımız var. İstənilən qabiliyyətli tələbə bir yerə getmək istəyəndə

onu göndərə bilirik. Bu smestr çoxlu tələbə və müəllimlərimiz xaricə gedib. Dünyanın hər yerindən də bizdə tələbələr oxuyur.

- Tələbələr universiteti bitirdikdən sonra iş tapmaq çətinliyi ilə üzləşirlərmi?

- Bilirsiniz ki, nə dövlət, nə də özəl müəssisələr işlə təminatı öz üzərlərinə götürmür. Bu, tələbənin öz işidir. Tələbə səviyyəli mütəxəssis kimi yetişsə özünə iş tapacaq. Bununla bərabər, universitetlər bu işə təkan verməyi də öz üzərlərinə götürürlər. Çünki universitetin məhsulu onun məzunlarıdır. Onlar nə qədər yaxşı işlə təmin olunurlar, nə qədər yüksək vəzifə tuturlarsa, bu, universitetin gücünün birinci göstəricisidir. Biz ilk dəfə Azərbaycanda amerikalıların və ingilislərin köməyi ilə peşə məşğulluq mərkəzini qurduq. Tələbələr burada oxuya-oxuya, yuxarı kursa çatanda iş verən şirkətlərlə əlaqə qururuq. Şirkətlərin özlərinin də qabiliyyətli məzunları işə götürmək marağı var. İxtisasdan da çox şey asılıdır. Hətta, dünyanın ən yaxşı universitetlərində də ixtisasdan asılı olaraq işədüzəlmə və əmək haqqı alma şansı fərqli olur. İqtisadiyyat, menicment, biznes ixtisasları üzrə bitirənlərə ehtiyac duyulur. Bizim ekonomika-menecment fakültəsinin məzunları nəinki dərhal işlə təmin olunur, hətta yuxarı kurs tələbələri işləyirlər. Bu tələbələrin kompyuter, ingilis dili bilikləri yüksək səviyyədədir. Beynəlxalq şirkətlər də belə işçilər axtarırlar. Bu gün məzunlarımız dünyanın hər yerində işləyir.

## ƏN BÖYÜK BƏLA

-
Dediklərinizə görə, ümumi təhsil məkanında təhsil keyfiyyəti və müəllimlərin saflığı ilə fərqlənən bir ada yarada bilmisiniz. Amma təcrübəli bir mütəxəssis kimi Azərbaycanda bütövlükdə təhsilin səviyyəsi barədə fikirlərinizi bilmək maraqlı olardı.

- Təhsilin ortalama səviyyəsi deyilən anlayış yoxdur. Çünki təhsil orta məktəb, daha sonra ali məktəb tərəfindən verilir. Onların metodologiyası, ideologiyası, səviyyəsi necədirsə, təhsilləri də o cürdür. Bu, təhsil müəssisələrinin səviyyəsi ilə ölçülür. Deyim ki, çox yüksəkdir, bunu qəti deyə bilmərəm. Azərbaycanda elə bir adam yoxdur ki, "bizdə təhsil çox yüksək səviyyədədir" deyə bilsin. Hesab edirəm ki, Azərbaycanda təhsil orta səviyyədədir. Əlbəttə, xeyli yeniləşmələr var. Məsələn, məktəblərin fiziki və maddi vəziyyəti xeyli yaxşılaşıb. Amma tapşırıq, rüşvət sistemi tam aradan qalxmayıb. Ən böyük bəla da bunu hesab edirəm. Təhsil mühitinin saflaşması ən böyük problemlərdən biridir. Digər problem isə təhsil işçilərinin maddi vəziyyətinin yaxşılaşdırılması ilə bağlıdır. Ali məktəb müəllimi bir neçə yerdə işləyəndə tədrisinin keyfiyyəti də aşağı düşür. Təhsil sahəsində Avropaya inteqrasiya etməyə çalışırıq. Bizim qəbul imtahanları sistemi nəinki mükəmməl deyil, çox böyük qüsurları var. Bu, ailələrə, uşaqlara çox böyük stress yaradır. Məsələn, uşaq bioloq olmaq istəyir, amma bu ixtisasla yanaşı, digər ixtisasları da yazır. Başqa ixtisas üzrə qəbul olunursa həvəssiz oxuyur. Amma dünya sistemi fərqlidir. Bu sahədə güclü addımlar atılmalıdır.

## HİSSLƏRİN HARMONİYASI

- Siz riyaziyyatçı alimsiniz, amma bədii yaradıcılıqla da məşğul olursunuz. Bu harmoniyanı necə yarada bilmisiniz?

- Çox insanlar var ki, bir neçə sahə ilə məşğul ola bilirlər. Burada təəccüblü heç nə yoxdur. Düşünürəm ki, bu insanın düşüncə tərzi ilə, öz hisslərini ifadə etməsi ilə bağlıdır. Riyaziyyatla şeir və ya musiqi arasında elə də böyük fərq yoxdur. Çünki bunların hamısı intuisiya tələb edir. Hamısının içində məntiq var və hamısı gözəllik axtarışındadır. Riyaziyyatın qeyri-adi gözəlliyini təəssüf ki, yalnız riyaziyyatçılar görə bilir. Amma musiqini, şeiri hamı rahat başa düşür. Şeir, mahnı insanın içində yaranan hisslərdir. Bu hisslər müxtəlif cür üzə çıxa bilər və hər adamda eyni səviyyədə olmur. Məndə riyaziyyata da, ədəbiyyata da sevgi uşaqlıqdan olub. Hətta bir-birləri ilə rəqabət də aparıblar. Amma məsləhət oldu ki, mən riyaziyyatçı olum. Xoşbəxtəm ki, riyaziyyatçı oldum və dünyanın riyaziyyatçı kimi gəzdim. Dünyanı riyaziyyatçı kimi dərk elədim. Amma elə şeylər var ki, onu riyaziyyatla ifadə edə bilməzsən. Riyaziyyatda təbiətin gözəlliyini riyazi dillə, şeirdə isə poetik dillə təsvir edirsən.

Şeirlərim aktyorların ifasında söyləndi, bəstəkarlar mahnılar yazdı. Çap olunması üçün israr edənlər də oldu. Mən də müəyyən mənada risk elədim. Başqa sahənin aliminin şeirlərini çap etdirməsini insanlar yaxşı qarşılamaya bilərdi. Ona görə də bir az ehtiyat edirdim. Şükür Allaha, pis qarşılanmadı! Xoşa gələn rəylər oldu. Elə oldu ki, şeirlərim Çində, Rusiyada, İranda, Gürcüstanda tərcümə olunaraq çap olundu.

## AZAD İNSANIN DÜŞÜNCƏSİ

- "Bu da bir həyatdır" kitabınızda "Əbədiyyət varmı?", "Varsa nədir o?", "Nədir həyat?", "Kim kimi yaratdı?" suallarını qoymusunuz. Bu suallara riyazi hesablamalarla cavab axtarırsınız, yoxsapoeziyanın gücü ilə?

- İnsan sualı dərrakə ilə verir. Dünyanın müəmmalarını, sirlərini hərtərəfli düşünür. Suallara cavabı əlbəttə, poetik ifadə edirsən. Amma poetik ifadənin içində fəlsəfə var. Fəlsəfi fikir olan şeir çoxyaşayır. "Kimi kim yaratdı?" sualını verərkən deyirəm ki, "Nənəm mənim dünyamı öncə yaratdı". Sonra da öz ağlımla dünyanı dərk elədim. Sonra da deyirəm ki, bütün hadisələri qiymətləndirən baş hakimzamandır.
Bu sualların doğru cavabını zaman deyəcək.

- "Ağlıma görə heç vaxt zərər çəkməmişəm, amma hisslərimə görə ziyan çəkmişəm" - bu sizin sözlərinizdir. Hisslərinizin sizə gətirdiyi ziyan nə olub?

- İnsanların müxtəlif tipləri olur. Diplomatik, siyasi tiplər var ki, onlar danışıqlarında həddən artıq ehtiyatlıdırlar. Həmişə xeyri olan şeyləri danışmağı hesablayırlar ki, bu onların karyerasına get-gedətəsir eləsin. Mənim tipim isə tamam başqadır – azad, sərbəst, yaradıcı insanın düşündüyüdür. Mən istənilən məclisdə öz düşündüyümü deyirəm.
Bu, bir dəstə adamların xoşuna gəlirsə, bəzi adamların xoşunagəlmir. Çünki bu, onların dəyərlərinə toxunan şeylər ortaya qoyur. Siyasi düşünən adam isə o sözü həmin məclisdə deməz. Və ya bir məclisdə bir adamı tərifləyirlər. Mən onda susuram. Diplomatik düşünənadam "hamı təriflədi, mən də deməsəm yaxşı olmaz"- deyə o da tərif deyir. Bu, diplomatik ağılla deyil, insanın hisləridir. İnsanı insan edən onun hissləridir, tək ağıl deyil.

**YAŞAMAĞIN ÇƏTİNLİYİ**

- "Yaşamaqdır bu dünyada ən ağır iş" - bunu da siz yazmısınız. Yaşamağı sizin üçün çətinə çevirən nədir ki?

- Bir filosof deyərdi ki, "Mən ölümdən qəti qorxmuram. Nə qədər ki, mən sağam ölüm yoxdur". İnsanlar ölümün varlığını qəbul edirlər. Amma insan həyatı boyu mübarizədə olur. Bu zaman insan təközündən deyil, ətrafdakılardan asılı olur. Bu mübarizədə bəzən insanlar haqqı tapdalayırlar. Haqqı nahaqqa qurban verirlər. Ona görə də yaşamaq çox ağır işdir.

- Bir vətəndaş kimi bu gün sizi cəmiyyətdə ən çox narahat edən nədir?

- Saxtakarlıq… Həyatda olan bütün faciələrin, fəlakətlərin kökündə saxta düşüncələr durur. Təəssüf ki, buna çox rast gəlinir. Bəlkə mən saxtakarlığa ona görə az rast gəlirəm ki, burda özümüzə fərqli birdünya yaratmışıq. Və özümüzü bu dünyada yaxşı hiss edirik. Bununla bərabər, hər səviyyədə insanla təmasda oluruq. Saxta danışan, çirkin düşünən insanlara rast gələndə adam məyus olur. Biz də inqilabçıolmadığımız üçün belə vəziyyətdə ya şeir, ya da esse yazmaqla təsəlli tapmaq olur.

- Qarşıdan Novruz bayramı gəlir. Bayramın sizə bəxş etdiyi hisslər…

- Novruz bayramı kənddə doğulub böyüyən adam kimi çox sevdiyim bayramdır. İlk növbədə yəqin ki, tonqala görə. Bu, uşaq vaxtı mənə qeyri-adi görünürdü. Digər tərəfdən, bu, təbiətin dəyişməsidir. Yazın gəlməsini duyğu adamları həmişə qeyri-adi qarşılayırlar. Mən bu il Novruz bayramını İngiltərədə keçirəcəyəm. Səmənini götürüb orada yaşayan uşaqlarımızın yanına gedəcəyik.

**Məhərrəmova Təranə**

**Kaspi. – 2010. – 13-15 mart. – S.12.**